

Ü.Hacıbəyovla S.Vurğun arasında 21 il yaş fərqi olsa da, onları ümumi bir amal birləşdirirdi. Hər iki sənətkar əqidəcə bir-birinə çox yaxın idilər. Hələ uşaqlıq illərində Qazax Müəllimlər seminariyasında təhsil alarkən Ü.Hacıbəyovun "Əsli və Kərəm" operasında və "Arşın mal alan" operettasında - məharətlə iştirak edən Səməd Vəkilov sonralar Bakıda dahi bəstəkarla həm dostluq, həm də yaradıcılıq ünsiyyətində olmuşdur.

# Ağır günün dostları

Üzeyir bəy gənc şairə daim ata qayğısı göstərmiş, S.Vurğun isə böyük ustada övlad münasibətində bulunmuşdur. Unudulmaz şairin qızı Aybəniz xanım Vəkilova özünün uşaqlıq illərini xatırlayaraq danışır ki, Yusif, mən və Vaqif hələ kiçik idik. Bir gün Yesentukidə atam bizi Ü.Hacıbəyovun görüşünə apardı. Bizə də bərk-bərk tapşırdı ki, yaxınlaşıb Üzeyir bəyin əlini öpərsiniz. Sevimli sənətkarımız kresloda əyləşmişdi. Biz atamın dediyi kimi, bir-bir dahi bəstəkarın əlini öpdük.

Vaqif lap balaca olduğu üçün o, Üzeyir bəyin əlini öpəndə ölməz ustadımız onun başına sığal çəkdi. İndi, söz düşəndə Vaqifə deyirəm ki, Üzeyir bəy sənin başına sığal çəkməklə sənə musiqi istedadı bəxş etdi. Görüş zamanı bizi heyrətləndirən bir məqam hələ də yadımızdadır. Atam o vaxtlar artıq tanınmış bir şair idi. Amma bütün söhbət boyu Üzeyir bəyin hüzurunda o, ayaq üstə dayandı, oturmadı. Bu, dahi sənətkara olan misilsiz hörmət və ehtiramın əlaməti idi.

Böyük şəxsiyyət, gözəl, qayğıkeş insan Üzeyir bəy Hacıbəyov yaradıcı gənclərin fəaliyyəti ilə çox maraqlanırdı. Səməd Vurğunun istedadına isə xüsusi rəğbəti vardı. Həm də şairdə olan milli qeyrət, böyük vətənpərvərlik, xeyirxahlıq hissi Üzeyir bəyin diqqətini xüsusi cəlb edirdi. Onlar bir-birlərini çox yaxşı anlayır, duyur və daim əməkdaşlıq edirdilər. S.Vurğun bəzən yeni şeir yazan kimi, ana dilimizin mahir bilicisi Ü.Hacıbəyova oxuyurdu. O da əksər hallarda şeirdən ilhamlanaraq ona musiqi bəstələyərdi.

Üzeyir bəy Hacıbəyovun baldızı oğlu və uzun illər dahi sənətkarın şəxsi katibi olmuş Ramazan Xəlilov xatirələrində yazır: "İkinci Dünya müharibəsi illərində Səməd Vurğun gecə yarı Üzeyir bəyin mənzilinə zəng çaldı və sonra indicə yaratdığı şeiri bəstəkara oxumağa başladı. Şeir Üzeyir bəyə təsir etdi. - Deynən, yazım, - deyə şairdən xahiş etdi.

Üzeyir bəy o dəqiqə geyindi, royal arxasında əy-

ləşdi, bir melodiya çalıb zümzümə etməyə başladı. Bir saat yarımdan sonra Səmədə zəng vurdu: - Bilirsən, ölçü, nəisə düz gəlmir... Görünür, o da yatmayıbmış, zəngi gözləyirmiş, axı Üzeyir bəyə yaxşı bələd idi. - İndi gəlirəm...Qaranlığa qərq olmuş şəhərin küçələri ilə, yolda onu saxlayan patrulları dilə tutaraq, Səməd Üzeyir bəygilə gəldi. Açılan səhəri məsləkdaşlar yeni mahnı ilə - "Vətən ordusu" mahnısı ilə qarşıladılar".

***Qorxub çəkinmərik ölümdən, qandan,***
***Çıxdıq illər boyu çox imtahandan.***
***Bombalar yağsa da hər gün, hər yandan,***
***Dağlara səs salır hücum borusu,***
***Haydı, marş irəli, Vətən ordusu.***

İkinci Dünya müharibəsi illərində musiqimizin və poeziyamızın təəssübkeşləri qələbə naminə var qüvvələri ilə çalışırdılar.

Ü.Hacıbəyov müharibə illərində hərbi-hamilik işlərinə rəhbərlik edirdi. Onun sədrliyi ilə xüsusi komissiya fəaliyyətə başlamış, hərbi-hamilik işləri üzrə briqadalar təşkil edilmiş, qərargah yaradılmışdı. Komissiyanın göstərişi ilə hər yerdə şən, vətənpərvərlik və səfərbəredici əhval-ruhiyyə yaradan musiqilər səsləndirilir, xalqımızı, döyüşçülərimizi qəhrəmanlığa, qələbəyə sövq edirdilər.

İkinci Dünya müharibəsinin ilk günlərindən Ü.Hacıbəyov Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi bütün bəstəkarları vətənpərvərlik ruhlu əsərlər yazmağa çağırırdı. Özü də bu səpkidə çoxlu əsərlər yazmışdır. O, həm də Yazıçılar İttifaqına, şəxsən onun rəhbəri Səməd Vurğuna müraciət edərək, müdafiə mövzusunda mübariz mahnılar yaratmaq üçün mətnlər yazılmasını xahiş edirdi.

Hətta Azərbaycan yazıçılarından M.S.Ordubadi, S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, O.Sarıvəlli, Z.Xəlil, N.Rəfibəyli, Ə.Cəmil və başqalarının iştirak etdiyi, 1942-ci il sentyabr ayının 14-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən "Vətən müharibəsi dövründə Azərbaycan ədəbiyyatı" adlı ədəbi-bədii gecədə giriş sözünü böyük bəstəkarımız Üzeyir bəy Hacıbəyov söyləmişdir.

İkinci Dünya müharibəsindən əvvəl də, müharibə başladıqdan sonra da Ü.Hacıbəyov tez-tez hərbi hissələrdə olur, əsgərlərlə, döyüşçülərlə görüşür, onların vəziyyəti, güzəranı ilə maraqlanırdı.

Bəzən də hərbçilərlə görüşlərə elə S.Vurğunla birgə gedərdilər. Müharibə dövründə bu iki böyük sənətkar müştərək yaradıcılığa əsasən bir neçə əsər ərsəyə gətirmişdilər. "Vətən ordusu", "Ey Vətən", "Döyüşçülər marşı", "Zəfər himni", "Şəfqət bacısı", Azərbaycan Respublikasının himni müharibə illərinin məhsullarıdır. "Şəfqət bacısı" mahnısının yaranma tarixi çox maraqlıdır. İkinci Dünya müharibəsi başladıqdan üç gün sonra Azərbaycan Dövlət Konservatoriyasının yeni istifadəyə verilmiş binası hospitala çevrildi.

Olduqca xeyirxah, qayğıkeş, xalqını, vətənini sevən Ü.Hacıbəyov tez-tez bu hospitala gedər, oradakı yaralı əsgərlərə baş çəkərdi. Hər dəfə də gedəndə onlara ərzaq, pal-paltar və s. aparardı. 1941-ci il idi. Artıq cəbhədə ölüm-dirim mübarizəsi gedirdi. Belə bir vaxtda döyüşlərdə yara alan əsgərləri bu hospitala gətirirdilər.

Üzeyir bəy də vaxtaşırı oraya gedərək yaralılarla görüşür, onlara maddi və mənəvi yardım göstərirdi. Belə görüşlərin birində, döyüşdə ağır yaralanmış leytenant Əsgərov, azərbaycanlı bir tibb bacısının şücaətindən qürurla söhbət açaraq demişdir ki, cəbhədəki döyüşlərin birində mən çiynimdən və ayağımdan ağır yaralanmışdım. Vəziyyətim ağır idi.

Bu zaman tibb bacısı özünü yetirərək məni çiyninə alıb, sürünə-sürünə odun-alovun içindən çıxardı. Mən sağ qaldığım üçün 19 yaşlı şəfqət bacısına borcluyam.

Bu görüşdən çox mütəəssir olmuş Ü.Hacıbəyov evə gəldikdən dərhal sonra S.Vurğuna zəng çalmış, əhvalatı ona söyləmiş və bildirmişdir ki, şəfqət bacısı haqqında mahnı bəstələmək niyyətindədir.

Sözlərini isə yazmağı Səməd Vurğuna həvalə etmişdir. Şair məmnuniyyətlə razılıq vermiş, səhəri günü hazır mətnlə bəstəkarın yanına gəlmişdir. İki gündən sonra isə məşhur "Şəfqət bacısı" mahnısı hazır olaraq ön cəbhəyə göndərilmişdir.

***Gəl ana yurdumun qızı, gəlini,***
***İndi namus vaxtı, qeyrət dəmidir.***
***Sən də əsirgəmə kömək əlini,***
***Hər sözün, söhbətin can məlhəmidir.***
***Adın şərəflidir sənin ey qadın,***
***Dahilər anası çağrılır adın.***

Bu mahnını ilk dəfə 416-cı atıcı diviziyasında xidmət edən Rəşidə Qasımzadə digər tibb bacıları ilə birgə ifa etmişdilər.

Ölkəmizdə elə bir tədbir olmazdı ki, Ü.Hacıbəyov və S.Vurğun orada iştirak etməmiş olsunlar. Müharibənin qızğın çağında, 1942-ci il sentyabr ayının 7-də Azərbaycan hökumətinin göstərişi ilə Bakıda muğam və xalq mahnılarının ifası məsələlərindən bəhs edən müşavirə çağırılmışdır. Müşavirədə bəstəkarlar, şairlər, xanəndələr, ifaçılar, o cümlədən C.Qaryağdıoğlu, H.Sarabski, Niyazi, Ə.Bədəlbəyli, S.Rüstəmov, S.Vurğun, M.S.Ordubadi iştirak etmişdilər. Müşavirə incəsənət işləri idarəsinin rəisi Mirzə İbrahimovun sədrliyi ilə keçmişdir. Əsas məruzəçi isə Üzeyir bəy Hacıbəyov olmuşdur. Məruzədə böyük bəstəkar muğamlara seçilən sözlər, xanəndə və sazəndə dəstələri tərəfindən xalq mahnılarının oxunması, ifaçının səhnə bacarığı və s. məsələlərdən bəhs etmişdir.

Ustad sənətkar mahnı mətnlərinin seçilməsinə, ümumiyyətlə ana dilimizin saflığına həmişə xüsusi diqqət yetirmiş, qələm sahiblərinə də dilimizə hörmətlə yanaşmağı tövsiyə etmişdir.

Bu barədə akademik Məmməd Arif Dadaşzadə yazırdı: "Bir dəfə S.Rəhimovun dilini tənqid etmişdim. Məqalə çıxandan sonra mənə dedilər ki, Üzeyir bəy səni axtarır, ona zəng elə. Mən bir qədər təşvişə də düşdüm. "Görəsən, Üzeyir bəy məni nə üçün axtarır?" - deyə düşündüm. Zəng vurdum, dedi ki, Arif, bir mənim yanıma gələrsən, getdim, içəri girəndə gördüm ki, mənim məqaləm onun stolunun üstündədir.

S.Rəhimovun dilindən gətirdiyim bəzi sözlərin altından qırmızı qələmlə xətt çəkmişdi. Salamlaşdıq, oturdum. Dedi ki, məqalən pis deyil, xoşuma gəldi. Amma S.Rəhimovun dilindən gətirdiyin sözlərlə səninlə razılaşmaq çətindir.

Əgər sən Bakıda və onun ətraf kəndlərində az işlənən, lakin rayonların bir çoxu üçün xarakterik olan bu sözlərin əleyhinə gedirsənsə, bununla da ədəbi dilimizi yoxsullaşdırmırsanmı? Bəs az işlənən və işlənməyən bu sözləri yazıçılarımız bədii əsərlərdə çox işlətməsələr, necə olar? Mən razılaşdım və səhvimi başa düşdüm".

Bu baxımdan Səməd Vurğunun dili haqqında, onun "Fərhad və Şirin" əsərinin isə Stalin mükafatına təqdim edilməsi münasibətilə 19 fevral 1942-ci ildə Stalin Komitəsinin iclasında Ü.Hacıbəyovun söylədiyi nitq də çox maraqlıdır. Üzeyir bəy Hacıbəyov çıxışında demişdir: "Səməd Vurğun - müasir Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən biridir.

Burada mən deyərdim ki, nəinki parlaq nümayəndələrindən biri, hətta ən istedadlı nümayəndəsidir. Azərbaycan dilinin nümunələrini Azərbaycan ədəbiyyatı xəzinəsinə daxil edərək, o, Azərbaycan xalqının həyatının bütün sahələrini müxtəlif yollarla əks etdirməyi bacarmışdır. Şairin şeirləri ana vətənə dərin hisslərlə, hədsiz məhəbbətlə doludur. O, şeir sənətinə mükəmməl yiyələnmişdir. Dramaturgiya yoluna isə o, üç dramla daxil olmuşdur.

Bir dramaturq kimi Səməd Vurğunun əsas cəhəti odur ki, onun əsərlərində real xarakterlər verilir və lirik şairin dərin psixologizmi hiss olunur. Bir dramaturq olaraq onun yaradıcılığının ikinci əsas tərəfi odur ki, o, insan həyatını romantik və filosof şair kimi təsvir edir. Hazırkı "Fərhad və Şirin" əsəri bizim ədəbiyyatımızda və teatrda böyük əhəmiyyət kəsb edən hadisədir.

O, Nizami haqqında yazır və onu müasirləşdirərək, sözün əsl mənasında, çağdaş vətənpərvərlik dramı yaratmağa müvəffəq olmuşdur. Bu, nəzmlə yazılmış dramdır. O, epik asudəliyi və dramatizmi birləşdirir. Bunlar hamısı çox gözəl dillə yazılmış və bu nəinki Azərbaycan, hətta bütün çağdaş dramaturgiyanın nailiyyətlərindən biridir". 1940-cı ildən, yəni yarandığı gündən, ömrünün sonuna kimi Stalin komitəsinin üzvü olan Ü.Hacıbəyovun bu çıxışından sonra S.Vurğunun "Fərhad və Şirin" əsəri qeydsiz-şərtsiz Stalin mükafatına layiq görülmüşdür.

Üzeyir bəy Hacıbəyov haqqında tədqiqat apararkən Səməd Vurğun tərəfindən bəstəkara ünvanlanmış kiçik bir məktuba rast gəldim. Orada yazılırdı: "Əzizim Üzeyir bəy! Siz məndən ordumuzun 25-ci ildönümü münasibətilə şeir istəmişdiniz. Mən də "Gözaydınlığı" adlı bir şeir yazıb sizə göndərirəm. İndi söz sizindir! Sizin böyük sənətiniz hər zaman mənim şeirlərimə qanad verdiyi kimi, bu şeirimə də qanad verəcək. Əllərinizi bərk-bərk sıxıram, hər vaxt qulluğunuzda hazıram. Sizin S.Vurğun 9.II.43. Bakı".

1944-cü ildə Üzeyir bəy Hacıbəyovla Səməd Vurğun birlikdə Azərbaycanın Dövlət himnini yazdılar. O dövrdə bütün respublikalara Dövlət himnləri yaratmaq üçün göstəriş verilmişdi. Elə həmin ildə Azərbaycanın o zamankı rəhbəri Mir Cəfər Bağırov Üzeyir bəyi yanına dəvət edərək demişdir: "Moskvada olarkən İ.V.Stalin yoldaş məndən xahiş etdi ki, onun salamını şəxsən sizə yetirim. Və bir də tapşırdı ki, Azərbaycan Respublikasının Dövlət himnini Ü.Hacıbəyovla S.Vurğun yazsınlar." Böyük bəstəkar bu söhbətdən çox məmnun olaraq, M.C.Bağırovla görüşdən dərhal sonra işə başlamışdır. Himnin sözlərini yazmağı isə Səməd Vurğunla bərabər Süleyman Rüstəmə həvalə etmişdilər.

1945-ci ildə Ü.Hacıbəyovla S.Vurğun İkinci Dünya müharibəsinin qələbə ilə başa çatması münasibətilə "Zəfər himni" adlı xor və orkestr üçün əsər yazdılar. Bu, onların müştərək yaradıcılığının son mərhələsi oldu. 1945-ci ilin sentyabr ayında dünya

şöhrətli dahi bəstəkar, publisist, dramaturq, pedaqoq, filosof, alim, akademik, ictimai xadim Üzeyir bəy Hacıbəyovun anadan olmasının 60 illiyi, yaradıcılıq fəaliyyətinin 40 illiyi böyük təntənə ilə keçirilmişdir. Yubiley gecəsində Rəyasət heyətində əyləşən Səməd Vurğun yubilyara elə oradaca şeir yazır və təbrik çıxışından sonra "Böyük bəstəkar" adlı həmin şeiri oxuyur.

1948-ci il 23 noyabr. Azərbaycan xalqı və mədəniyyəti üçün olduqca ağır bir gündür. Həmin gün dahi bəstəkar, əvəzsiz insan Üzeyir bəy Hacıbəyov əbədi olaraq həyata gözlərini yummuşdur. Bu münasibətlə S.Vurğun "Eşq olsun sənətkara" şeirini yazır. Ünlü şairimiz bu münasibətlə "İnsan qəlbinin tərənnümçüsü" adlı vida sözündə yazırdı: "Bütün xalqımız böyük bir hüzn ilə musiqi sənətimizin ölməz ustadı olan Üzeyir Hacıbəyovla vidalaşdı.

Əziz və hörmətli bir insanın tabutunu torpağa tapşırmaq onu sevənlər üçün, bütün xalq üçün ağır bir dərddir". Üzeyir bəy Hacıbəyovun vəfatından sonra da S.Vurğun onun xatirəsini həmişə əziz tutmuşdur.

Üzeyir Hacıbəyovun ev-muzeyinin mərhum direktoru, professor Ramazan Xəlilov danışırdı ki, 50-ci illərdə S.Şahsuvarova adlı dekorativ tətbiqi sənət ustasına ölməz sənətkar U.Hacıbəyovun əksi olan gözəl bir güldan sifariş etmişdim. İşini tamamladıqdan sonra rəssam yanıma gəldi və bildirdi ki, güldan artıq hazırdır. Doğrudan da çox gözəl bir iş alınmışdı. Onda hələ Üzeyir Hacıbəyovun ev-muzeyi açılmamışdı.

**Güldanın pulunu isə ödəmək lazım idi. Böyük vəsait tələb olunurdu. Çox fikirləşdikdən sonra Səməd Vurğunun yanına getdim. O zaman böyük şairimiz Azərbaycan EA-nın vitse prezidenti vəzifəsində çalışırdı. Əhvalatı ona danışdım. S.Vurğun dərhal Azərbaycan Dövlət Tarix Muzeyinin direktoru Məmməd Qazıyev ilə əlaqə saxladı. Bildirdi ki, üzərində Üzeyir bəyin əksi olan güldanın rəssamdan alınmasına yardımçı olmalıdır. M.Qazıyev sevimli şairin xahişini yerə salmadı, güldanın pulunu rəssama ödəyərək onu muzey üçün əldə etdi. Hazırda qiymətli rəngli şüşədən hazırlanmış həmin güldan Azərbaycan Dövlət Tarix Muzeyində nümayiş edilir.**

**Səadət QARABAĞLI**